# RÖVŞƏN ABDULLAOĞLUNUN "MƏN YEMƏLİ DEYİLƏM" ROMANINDA İNSANLA TƏBİƏTİN ƏSRARƏNGİZ RABİTƏSİ

**Leyla Ramazanova**

*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı*
*leylamuellim@gmail.com*

Müasir Azərbaycan ədəbiyyatının parlaq simalarından biri olan Rövşən Abdullaoğlu müxtəlif janrlarda yazılmış 28 kitabın müəllifidir. Dünya dillərinin bir çoxuna tərcümə olunmuş bədii əsərləri xarici və yerli tənqidçilər tərəfindən də yüksək qiymətləndirilmişdir.

Müəllifin maraq doğuran əsərlərindən biri 2020-ci ildə qələmə aldığı "Mən yeməli deyiləm" və ya "Ləpirçi"romanıdır. Romanda hadisələr 1884-cü ildə Afrika qitəsində cərəyan edir. Bir neçə ay Afrikada yaşayan, qitənin müxtəlif istiqamətlərində məskən salmış tayfalarla tanış olan yazıçı bu qədim torpağa onların gözləri ilə baxmağı, problemlərini fərqli rakursdan əks etdirməyi bacarmışdır.

Gözləri fərqli rəngdə olduğu üçün qəbiləsi tərəfindən lənətli hesab olunan balaca Lanonun dilində nəql olunan əsərdə R.Abdullaoğlu siyasi, iqtisadi, dini, adət-ənənə problemləri ilə yanaşı, insanla təbiətin əsrarəngiz əlaqəsini, bu rabitəni zədələyən amilləri qeyd etmişdir. Əsərin ilk səhifələrində baş qəhrəmanın belə bir üsyankar nitqi ilə qarşılaşırıq: "Təbiətin bir hissəsiyiksə, niyə təbiətdəki rənglərə boyanmaqdan imtina edirik? Bir budaq quruyanda o biri budaqların ona yardım etdiyini görürdüm. Nubaların (aid olduğu qəbilə) lənətlənmiş hesab etdikləri kaftarlardan birinin ayağı zədələnəndə başqa kaftarlar yarasını yalayırdılar ki, tez sağalsın. Yox, insanlar təbətdən deyildilər. Bircə dəfə gözlədiklərini vermədiyinə görə Maqunun (onun yeganə hamisi) bu qədər yaxşılıqlarını necə unuda bilirlər?" Müəllif bu kiçik monoloqla təbiətin özü-özünü bərpa etdiyini, bütün hadisələrin bir-birini tamamladığını diqqətə çatdırmaqla bərabər, insanda olan naşükürlük, vəfasızlıq duyğularını qabartmışdır. İnsandakı paxıllıq, doyumsuzluq hissinə diqqət çəkən ədib yazır: "Ancaq onu bilirəm ki, bu heyvanların heç biri – istər quruda gəzənlər olsun, istər

havada uçanlar, biri digərinin tikdiyi yuvaya baxıb özünə ondan yaxşısını arzulamır; hər heyvan öz ehtiyacına uyğun ölçüdə yuvasını qurur. Heyvanlar bir-birinin paxıllığını çəkmirlər, öz həmcinslərinə şər atmırlar, bizim nubalar kimi öz uğursuzluqlarını onun-bunun boynuna yıxmırlar. Ehtiyacından artığını qamarlayıb götürmürlər...". R.Abdullaoğlu insanla təbiəti daim qarşılaşdırır, yolda qarışqanın əzmini görən Lano sonda belə bir nəticəyə gəlir ki, insan olmağımızın bədəlidir: yekə başımıza min cür şəkk-şübhə, qorxuya salan düşüncələr gəlir. Bu da bizi həvəsdən salır, işimizi yarımçıq qoyuruq. Çox "ağıllı" olduğumuzdan dərhal təslim olmağı seçirik.

Alkebula – əsərdə Afrika qitəsi bu adla təqdim olunur ki, qədim qəbilələr ana torpaqlarını bu cür adlandırırlar. Müəllif Alkebulanın iki ən böyük problemi olaraq qəbilədaxili müharibələri və mzunqu adlandırdıqları ağdərililərin bu qitəni işğalında görürdü. Lano verilmiş tapşırığı yerinə yetirmək üçün öz yaşadığı ərazidən çıxaraq Afrikanın müxtəlif istiqamətlərini dolaşır və bu ədəbi priyomla yazıçı müxtəlif problemləri dilə gətirir. Susuzluq və quraqlıq içərisində yaşayan qəbilənin başçısı buranın əvvəllər yaşıllıq olduğunu deyəndə təəccüblənən Lanoya bu hadisəni nəql edir: "Mzunqular gəldilər. Mən onda gənc idim. Böyüklərimizlə danışdılar. Bu torpaqlarda hər addımda qırmızı ağaclar bitirdi – kayya ağacları. Mzunqular qırmızı ağacları kəsib aparmaq istəyirdilər, əvəzində çoxlu bəzəkli, parıltılı əşyalar təklif etdilər. Babalarımız da razılaşdılar. Axı o bar verməyən qırmızı ağaclar kimə lazım idi? Biz bu axmaq mzunquların hər addımda bitən ağacların qarşısındakı heyrətini anlaya bilmirdik. Mzunqular bütün kayya ağaclarını dibindən kəsib apardılar. Daha o kötüklər pöhrələmədi. Ondan sonra baobablar, onun ardınca başqa ağaclar, yeməli bitkilər tələf oldu, göllərin suyu yerin tərkinə sovruldu, su atları qırıldı, quşlar uçub getdilər". Müəllif bununla da təbiətin bütöv bir canlı olduğunu, vəhdət təşkil etdiyini göstərmişdir, Allahın harmoniya ilə yaratdığı bu dünyada bir şey məhv edildikdə bütöv sistemə təsir göstərdiyini, insan əli ilə təbiətin zərər gördüyünü, bəzən geri dönüşü olmayacaq hadisələrin baş verdiyini diqqətə çatdırmışdır. Müasir ekoloji tarazlığın pozulmasının səbəbi olan insan qədim və zəngin Afrikanın bu gün aclıq, səfalət işində yaşamasının başlıca səbəbi kimi göstərilir. Maraqlıdır ki, müəllif günahı yalnız işğalçı ağdərililərdə görmürdü. Bu əhvalatı dinləyəndən sonra Lano ibrətamiz bir fikir səsləndirir: "Öz əlinlə verdiyin oğurluq sayılmaz, alanı zalım, verəni məzlum etməz". Afrikanın bu gün acınacaqlı vəziyyətdə olması yerli qəbilələrin ağılsız başçıları, yalançı ruhaniləri ilə yanaşı, öz mənafelərini düşünən, bəzi məqamlarda insanlıqdan uzaq hərəkət edən ağdərililərin də günahıdır.

Əsərin sonrakı səhifələrində baş qəhrəman yerlilərin dili ilə desək, lənətlənmiş heveya ağacı (kauçuk ağacı) bitən ərazidə yaşayan qəbilə ilə qarşılaşır. Dumanlı beyin, parıltısını itirmiş bulanıq gözlər bu qəbilənin əsas xüsusiyyətləri idi. Onlar dayanmadan ağdərililər üçün kauçuk ağacının mayesindən toplayıb verməli idilər, əgər qəbilə nümayəndələri qoyulmuş vəzifəni tam yerinə yetirə bilməsələr, özləri və ya övladları müxtəlif cəzalar alır, xüsusilə sol qolları biləkdən kəsilərdi. Lano bu əziyyətlərə nə üçün dözdüklərini, buranı tərk etmədiklərini soruşduqda oradakı qadınlardan biri belə cavab verir: "Axı haraya qaçaq? Alkebulanın harasında amanda olarıq? Mzunqular getdikcə çoxalırlar, hər yerə yayılırlar. Bilirsən onlar bizə nə deyirlər? "Tüksüz meymun", "yarımadam..." Boynumuza dəmir halqalar keçirib, üzərinə nəsə işarələr qoyublar. Bununla bizim kimə məxsus olduğumuzu müəyyən edirlər. Deyirlər haraya qaçsaq, başqa mzunqular bununla bizi tanıyıb sahibimizə qaytaracaqlar, – qadın hirslə iki əlini boğazına kip oturdulmuş dəmir halqaya keçirdib dartdı". Rövşən Abdullaoğlu romanın digər hissələrində də avropalıların bəzi qeyri-insani hərəkətlərini təsvir etmiş, Afrika qitəsinin flora və faunasına ziyan vurmaqla yanaşı, mədəni inkişafdan geri qalan qəbilələri kölə kimi işlətməkdən daha betər, heyvan kimi zooparkda nümayiş etdirilməsini tənqid etmişdir.

Romanın maraqlı xətlərindən birini afrikalı oğlan – Lano və kaftar – Xolonun dostluğu təşkil edir. Anası ölərkən yeni doğulan kaftara rəhmi gələn Lano qəbilənin etirazına baxmayaraq, onunla dostlaşır, onu böyüdür. Qəbilənin baş kahini onun ancaq bədbəxtlik gətirəcəyini desə də, əsər boyu yanıldığını müşahidə edirik. Ümumiyyətlə, müəllif kahinlərin fikirlərinin yalan olduğunu, öz məqsədləri üçün qərar verdiklərini müxtəlif hissələrdə oxucunun nəzərinə çatdırmışdır. Lano Ağ şirlə vuruşan zaman Xolo bir an belə qaçmağı düşünmür, ölməyə razı olur, ancaq dostunu yalnız qoymur. Romanın təsirli hissələrindən biri də Xolonun öldüyünü düşünən Lanonun hayqırıqları, dostuna olan sevgisini dilə gətirməsidir. Müəllif bu dostluqla insan və heyvan sevgisini, sədaqətini, vəfasını bir daha sübut etmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, R.Abdullaoğluna görə, XIX əsrdə Afrika qitəsinin ikinci ən böyük problemi qəbilələrarası bitməyən daxili müharibələrin baş verməsi idi. Bu müharibələrdən və digər qəbilələr tərəfindən heyvan kimi ovlanaraq yeyilməkdən ən çox ziyan görən tayfalardan biri piqmeylərdir. Digər

qəbilələrdən boylarının qısa olması ilə fərqlənən bu tayfa avropalıların və amerikalıların da marağına səbəb olmuş, "təkamülü tamamlanmamış insan" adı ilə hər cür təcavüzə məruz qalmış, müxtəlif təcrübə obyekti kimi istifadə olunmuşdur. Əsərin böyük bir qismi bu tayfanın yaşayış tərzinə, təbiətlə sehrli bağına həsr olunmuşdur. Hər şey kahin Taşinin lənətlənmiş olduğunu düşündüyü Lanonu efe ovlamaq üçün göndərdiyi zaman başlandı. Efelər meymundan sürətli, zəhərli oxları olan, xüsusi əfsuna malik olan heyvan kimi tanıdılır. Uzun axtarışdan sonra Lano efelərdən birini tutmağı bacarır, lakin müxtəlif sərgüzəştli hadisələr baş verdikdən, efelərin yaşadığı əraziyə gələndən sonra məlum olur ki, heyvan kimi ovlanan bu məxluqlar insan imiş, qısaboylu olmaları və dillərinin digər qəbilələr tərəfindən bilinməməsi onlara böyük maneələr yaradır. Həm ağdərililərdən, həm də digər qəbilələrdən qorunmaq üçün onlar qayalıqların arasında görünməyən yerlərdə yaşamağa məcbur olublar. Digər qəbilələrdən fərqli olaraq, burada başçı var, lakin kahin yox idi. Bunun səbəbini soruşduqda isə Lanoya bu cavab verilir: "Fırıldağı anlayan, insanı üsyana, etiraza sövq edən, düşmənə qarşı qəzəbləndirən hər nədirsə, bax buradadır, – barmağını başına qoydu, – bunu zərərsizləşdirsən, insanların taleyini ələ keçirərsən, olarlar sənə nökər. Kahinlər insanların öz ağıllarına olan etimadlarını sındırır, onları beyinsiz olduqlarına inandırır". İnsan hesab edilməyib təhqirə məruz qaldıqları digər tayfalardan daha humanist, yardımsevər olan bu tayfanın adət-ənənələri, qadına olan dəyəri və digər fəlsəfi məsələlər də əsərdə öz əksini tapmışdır. Müəllif efelərin simasında belə bir suala cavab axtarır: "İnsan olduğunu isbat etməyin yolu varmı?". R.Abdullaoğlu insanla heyvanı qarşılaşdırır, şir öz təbiətinə uyğun olaraq hərəkət edir, parçalayır, yeyir, sabahı düşünmür, ancaq insan keçmişin təəsüfü ilə yaşayır, gələcəyin qayğısını çəkir və bu günün qədrini bilmir. Əsərin sonunda efelərin, yəni piqmeylərin nümayəndəsi özünü tayfası üçün fəda etdikdə, sevinc yaşları içində öldükdə, digər qəbilələr də onların insan olduğunu qəbul edir və bir daha onları ovlamayacaqlarına söz verirlər. Mimi si çakula! Mən yeməli deyiləm! sədaları bütün qitədə əks-səda tapır.

Müəllif romanda həmçinin Afrikanın bənzəri olmayan təbiəti, flora və faunası haqqında maraqlı məlumat verir, geniş təsvirlərə yer verir: "Umeyna bitkilərin şahıdır, bədəni qüvvətləndirir, yaraları sağaldır. Onu əzib məlhəmlərə qatırıq. Ətri isə adamı başqa aləmə çəkib aparır".

Rövşən Abdullaoğlu insanla təbiətin əsrarəngiz rabitəsi ilə yanaşı, müxtəlif Afrika xalqlarının qədim mədəniyyəti, inanc və əfsanələri, həyat fəlsəfəsi, yaradılış, insan və cəmiyyətin psixologiyası ilə bağlı məsələləri işıqlandırmışdır.